# ALİM VƏ MÜƏLLİM ÖMRÜNÜN BƏHRƏSİ



*Aypara BEHBUDOVA,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent*
*Naxçıvan Dövlət Universiteti*

Ömrünü elmə, təhsilə həsr edən əsl pedaqoq, istedadlı jurnalist, filologiya üzrə fəlsəfə doktoru Süleyman Alıyevin "Könül dünyasının düşüncələri" adlı yeni kitabı 2025-ci ildə "Elm və təhsil " nəşriyyatında işıq üzü görüb.

Kitabı tərtib edən və redaktoru tərcüməçi-jurnalist Zakir Alıyev, rəyçi və ön sözün müəllifi isə istedadlı şair, filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Xanəli Kərimlidir. Kitab səkkiz ayrı-ayrı bölmələrdən ibarətdir ki, burada yer alan "Ədəbi düşüncələr", "Qarabağ Azərbaycandır", "Pedaqoji düçüncələr", "Vətənə, yurda bağlı insan", "Yaradıcı insanlar", "Dünya bir pəncərədir, hər gələn baxar gedər" və s. bölmələrinin hər birində Süleyman Alıyevin zəhmətini, alim axtarışlarının bəhrəsini görməmək mümkünsüzdür. Kitabda alimin dostlarının, yaxın tanışlarının onun haqqında yazdığı məqalələr , eyni zamanda, özünün elm və sənət adamları, yaradıcı insanlar haqqında yazdığı ürək sözləri, jurnalist kimi müsahibələri və müxtəlif tədbirlərdə etdiyi çıxışlardan bəzi nümunələr də yer alıb.

Öncə onu qeyd edim ki, kitabı oxuyan zaman ilk duyduğum bu oldu ki, Süleyman Alıyev qarışıq bir zamanda özünün bütövlüyünü, duyğularının, düşüncələrinin saflığını qoruyub saxlaya bilmişdir. Əlbəttə ki, bu hər bir alim-pedaqoq , yaradıcı insan üçün çox vacib şərtdir. O, öz şəxsi həyat nümunəsi ilə bütövlükdə cəmiyyətin saflığına xidmət edir. Bunu Süleyman Alıyevin haqqında yazılanlardan da açıq-aydın görmək olur.

Süleyman Alıyevin simasında alim, pedaqoq, publisist, jurnalist, ata, baba, nəhayət, azərbaycanlı kimi xüsusiyyətlər sadəliyi, səmimiyyəti, təvazökarlığı, yüksək mədəniyyəti və əsl ziyalılığı, əsl vətəndaş yanğısı ilə üzvi şəkildə birləşib.Şair-publisist Xanəli Kərimli də kitaba yazdığı "Ön söz"də alimin bu xüsusiyyətlərini xüsusisi olaraq vurğulayır : "Onun yaradıcılıq və tədqiqatçılıq kredosu bir-birini tamamlayır. O, folklorun tədqiqindən yazanda da, ayrı-ayrı elm və sənət adamları ilə bağlı araşdırmalar aparanda da əsl milli ziyalı, təəsüsübkeş vətəndaş kimi diqqəti cəlb edir" Həqiqətən də, vətənpərvərlik insanın daxilindən gələn ən ülvi bir hissdir. Bu hiss olmadan nə qəhrəmanlıq mümkündür, nə də fədakarlıq. Süleyman Alıyev də həyatını vətənə olan məhəbbət üzərində qurub. Onun hər addımı, hər sözü, hər əməlinin arxasında Vətən sevgisi dayanır-.O, hər zaman gənclərə, dərs dediyi şagirdlərinə vətənpərvərlik nümunəsi göstərib, onlara vətən sevgisinin müqəddəs bir amal olduğunu aşılayıb. Onun fikrincə, gənclər yalnız bilikli, sağlam və güclü olduqda deyil, həm də vətənpərvər olduqda əsl vətəndaşa çevrilə bilər.

El arasında belə bir deyim var ki, insanın xarakteri, xasiyyəti öz doğulduğu məkandan qidalanır, bir sözlə, insan daha çox doğulduğu torpağa oxşayır. Süleyman Alıyev də əsrarəngiz təbiəti, gözəlliyi, saflığı ilə fərqlənən Cəbrayıl rayonunun doğulub boya başa çatdığı Yuxarı Mərcanlı kəndindən, onun işgüzar adamlarından çox şey öyrənib, sanki belə bir coğrafi və ictimai mühit ona ikinci bir həyat məktəbi olub.

"Könül dünyasının düşüncələri" kitabını vərəqlədikcə şahidi oldum ki, Süleyman Alıyev əsl pedaqoqdur.Demək olar ki, onun elmi yaradıcılığı ilə pedaqoji fəaliyyəti paralel şəkildə inkişaf edib, sanki biri digərini tamamlayır.Süleyman müəllimin fikrincə əsl müəllim şagirdinə gələcək həyat yolunda qarşılaşacağı çətinlikləri, manеələrdən necə qurtarmağın yollarını göstərən adamdır. Əsl müəllim özü şam kimi yanıb ərisə də belə, nurunu, əməyini, alın tərini, aylarını, illərini şagirdlərindən əsirgəməyən peşə sahibidir. Müəllim bilikli, yenilikçi, daim öyrənən, dövrlə ayaqlaşan adam olmalıdır.

Süleyman Alıyev "İlahi qismət" məqaləsində müəllim əməyinə yüksək qiymət verərək yazır: "Bu müqəddəs peşəni seçməyimə heç də peşman deyiləm. Müəllim işlədiyim illər ərzində-hər dəfə sinfə girib şagirdlərimin mənə zillənən baxışlarını gördükdə bu peşənin şərəfini, məsuliyyətini daha çox dərk etmişəm. Unutmamışam ki, yetişdirdiyim hər bir şagird cəmiyyət üçün qiymətli xəzinədir, gələcəkdə xalqımıza xeyir verəcək əsl vətəndaşdır. Müəllimlik çətin peşədir. Amma bir şagirdin qazandığı uğur çəkilən bütün əziyyətləri bir anda silir, yerini xoş bir məmnunluq, sevinc hissi tutur. Mən də çalışmışam ki, tədris etdiyim fənnin sirrlərini yaxşı bilim". Süleyman müəllim təhsildə qazandığı uğurlara görə dövlətimiz tərəfindən əməyi dəfələrlə qiymətləndirilərk Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Metodist müəllim" və "Ali dərəcəli müəllim" adına layiq görülmüşdür.

Süleyman Alıyev həm də tədqiqatçı alimdir . O, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olmuş, 1992-ci idə uğurla müdafə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi adına layiq görülmüşdür. Tanınmış ədəbiyyatşünas alim, professor Teymur Əhmədov onun elmi fəaliyyətilə bağlı yazır: "Süleyman Alıyevin şəxsində ədəbiyyatımıza yanar ürəkli, zəhmətkeş və yaradıcılıq əzablarına qatlaşan gənc bir alim gəlmişdir.Onun ədəbiyyata gəlişi bizi sevindirir. Bu alimin gələcəyinə ümid bəsləyir və ona çox inanırıq"




Professor Teymur Əhmədovun fikrinin davamı olaraq şair-publisist Əli Rza Xələfli "Tarixi-mənəvi səcərənin "Ədəbi düşüncələri" adlı məqaləsində Süleyman Alıyevin istedadlı tədqiqatçı olduğunu xüsusi olaraq diqqətə çatdırır: "O, tədqiqatçı müəllimdir. Çağdaş poeziyamızda Nəsimini öyrənən, Nəsimini bizə qaytaran, Nəsimini bizə Süleyman Alı dilində danışdıran bir müəllifdir. Nəsimiyə sevginin mahiyyəti, əqidə uğrunda şəhidliyin mahiyyəti Süleyman Alı yaradıcılığında çağdaş poeziyamızdakı Nəsiminin obrazına münasibətdir, özü də elə münasibətdir ki, bununla o, sözün insandan, insanın sözdən keçmə məqamına işıq sala bilir"

Kitabda yer alan məqalələrdə Süleyman Aliyevin Cənubi Azərbaycan demokratik ədəbiyyatında tarixi romanlar müəllifi kimi tanınan Abbas Pənah Makuli haqqında yazdığı "Abbas Pənah Makuli" adlı monoqrafiyanın elmi sanbalı haqqında tanınmış elm adamlarının fikirləri də yer alıb. Professor Qulu Xəlilov bu əsərin elmi, bədii dəyəri haqqında çox yüksək fikirlər söyləmişdir: "Alim yazıçının məqsədini, qayəsini düzgün başa düşərək tədqiqatı bu istiqamətə yönəltmiş və ədəbiyyatşünaslığımız üçün çox dəyərli bir əsər yazmışdır". Əlbəttə ki, tanınmış bir elm adamının S. Alıyev haqqında, onun monoqrafiyası haqqında bu cür fikir söyləməsi böyük uğurdur.



Kitabın maraqlı cəhətlərindən biri də Süleyman Alıyevin alim olmaqla yanaşı, əsl publisist kimi özünü bir daha təsdiq etməsidir. Onun qələmindən çıxan 100-lə məqalələr "Azərbaycan", "Qobustan" , "Ulduz", "Kitablar aləmində", "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Xalq qəzet", "Kredo" və s. qəzet və jurnallarda çap olunmuşdur. O, təhsilimizin, ədəbiyyatımızın təbliği istiqamətində əsl cəfakeşlərdən biri kimi yorulmadan çalışıb. Maraqlı cəhətlərdən biri də odur ki, S. Alıyev ilk məqaləsini Naxçıvan ədəbi mühitinin yetirmələri olan şairə xanımlara - Elmira Qasımova və Validə Hüsynovaya həsr etmişdir.İllər keçməsinə baxmayaraq 70-ci illərdə yazılmış bu məqalələr bu gün də öz elmi əhəmiyyətini itirməyib.

"Könül dünyasının düşüncələri " adlı kitabda alimin jurnalistlik fəaliyyəti də yer almışdır. O, əsl jurnalist bacarığı ilə müsahibə apardığı qonaqların tərcümeyi-halı ilə bərabər onların yaradıcılıqları, elmi, ictimai fəaliyyətlərilə bağlı ətraflı məlumat toplayaraq maraqlı və düşündürücü suallarla oxucuları təəccübləndirə bilmişdir. Bu hal onun əsl jurnalist peşəkarlığından xəbər verir.Eyni zamanda, Süleyman Alıyevin peşəkar bir jurnalist olduğundan xəbər verən "Şəhidlik zirvəsi" başlığı altında toplanan müsahibələrində də biz bunun əyani şahidi oluruq. O, Azərbaycan xalqının qəhrəman oğullarının qanı bahasına əldə edilmiş bu zəfərlə həmişə fəxr edir. Bu zəfərin arxasında şəhidlərimizin canı, qazilərimizin qəhrəmanlığı dayandığını xüsusi vurğulayır. O, hər zaman şəhid ailələrinə, qazilərə xüsusi diqqət və qayğı göstərməyi özünün vətəndaşlıq borcu, mənəvi məsuliyyət və vicdan işi sayır.O, şəhid analarının göz yaşlarını silməyi, qazilərin yanında olmağı özünün ən müqəddəs vəzifələrindən biri hesab edir. Çünki onun fikrincə, vətən uğrunda canından keçənlərin ailəsinə dəstək olmaq hər kəsin mənəvi borcudur.

İnanırıq ki, istedadlı alimin, əsl pedaqoqun mənalı həyat yoluna və elmi yaradıcılıgına həsr olunmuş "Könül dünyasının düşüncələri"adlı kitab oxucular tərəfindən maraqla qarşılanacaq, nəinki Süleyman Alıyevi tanıyanların, eyni zamanda, sözə, elmə dəyər verənlərin marağına səbəb olacaq.

*06.09.2025*